30 dekabr 2019-cu il, bazar ertəsi XALQ QƏZETİ

# Turizm sahəsi ili uğurlarla yola salır

***Hazırda turizm iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri sayılır. Azərbaycanda da bu sahənin inkişafına ciddi diqqət göstərilir. Dövlətin hərtərəfli dəstəyi sayəsində turizm artıq ölkəmizdə gəlirli sahələrdən birinə, geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilmişdir. Buna görə də, təsadüfi deyil ki, turizm sektorunun davamlı inkişaf etməsi və genişlənməsi bu sektoru sosial-iqtisadi tərəqqinin aparıcı qüvvələrindən biri kimi qiymətləndirməyə əsas vermişdir. Bu, özünü yeni iş yerlərinin yaradılması da, eləcə də turizmlə bağlı müəssisələrin və infrastrukturun qurulmasında göstərir. Yekunlaşmaqda olan ilin statistikası da təsdiqləyir ki, turizm Azərbaycanda sürətlə inkişaf edir və bu sektorun növbəti illərdə də ümumi iqtisadi inkişafımıza güclü təsir göstərəcəyi şübhə doğurmur.***





Bu gün qeyri-neft sektorunun inkişaf etdirilməsi məsələsi diqqət mərkəzindədir. Regionların inkişafı, müasir iqtisadi və sosial infrastrukturun yaradılması və digər layihələr reallaşdırılır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində yol-magistral təsərrüfatı yüksək templə inkişaf etdirilir. Çox sayda müasir körpü salınmış, tunellər tikilmişdir. Turizm sektorunda da vəziyyət ürəkaçandır və bu sektor Azərbaycanın rəqabət imkanlarını daha da artırır. Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Ölkəmizin ayrı-ayrı bölgələrində nadir memarlıq abidələri vardır. Mezolit, neolit və eneolit dövrləri haqqında maraqlı məlumatlara malik olan bu möhtəşəm abidələrin şöhrəti bütün dünyaya yayılmışdır. Qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdır. XVIII əsrin gözəl sənət nümunəsi və incisi, özünəməxsus memarlıq quruluşuna malik olan Şəki xan sarayı, həmçinin bu ərazidə yerləşən möhtəşəm qalalar, məbədlər və s. turistlərin diqqətini cəlb edən amillərdir.

Prezident İlham Əliyev turizmin əhəmiyyətini belə dəyərləndirir: "Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Bizim çox gözəl təbiətimiz var. Bəlkə nadir ölkələrdən biriyik ki, burada istənilən təbii şərait, istənilən iqlim var".

Bununla bərabər, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan etmişdir. Son illər ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Həmin tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoymuş, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlamışdır. Respublikamıza gələn turistlərin sayının günbəgün artması Azərbaycanda bu sahədə inkişafdan xəbər verir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycana 2 milyon 923,8 min turist gəlmişdir ki, bu da 2018-ci ilin analoji dövrünün göstəricisi ilə müqayisədə 11 faiz çoxdur. Gələnlərin 29,7 faizi Rusiya Federasiyası, 22,6 faizi Gürcüstan, 9,9 faizi Türkiyə, 8 faizi İran, 3,5 faizi Səudiyyə Ərəbistanı, 2 faizi Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları olmuşdur.

2019-cu ilin yanvar – noyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayının 22 faiz artaraq 130 min nəfərə, MDB ölkələrindən gələnlərin sayı isə 9,1 faiz artaraq 1 milyon 60 min nəfərə çatdığı vurğulanır. Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 58,4 faizii dəmir yolu və avtomobil, 40,8 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə etmişdir. 3 milyonuncu turistin isə bu ayın 12-də Azərbaycana gəldiyi bildirilir. Məlumatlara görə, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ildə dövlət sərhədindən keçən şəxslərin sayı 13 faiz, nəqliyyat vasitələrinin sayı isə 12 faiz çox olmuşdur. Bu rəqəmlər bir daha göstərir ki, ölkənin malik olduğu yol-nəqliyyat potensialı turist sayının artmasında əhəmiyyətli rol oynayır.

Azərbaycanın mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin ölkəmizə səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və sair sahələrdə məqsədyönlü tədbirlər həyata keçirilir. Xüsusilə də beynəlxalq nüfuzlu idman yarışlarının ölkəmizdə keçirilməsi Azərbaycana marağı artırır. Bundan başqa, Azərbaycanda turizmin inkişafına təkan verən amillərdən biri kimi ölkədə keçirilən beynəlxalq tədbirlər, konfranslar, simpoziumlar və müxtəlif görüşlər respublikamızın tanıdılması istiqamətində uğurlar sırasındadır. Ölkəmizdə uğurla keçirilən beynəlxalq tədbirlər Azərbaycanın turizm imkanlarının geniş məkanda tanınmasına yollar açır. Bununla yanaşı, dünya turistlərinin diqqətini Azərbaycana cəlb etmək üçün müxtəlif istiqamətlərdə fəal işlər görülür. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, bukletlər, disklər hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internet imkanlarından geniş istifadə olunur.

Viza prosedurlarının sadələşdirilməsi istiqamətində "ASAN viza" sisteminin yaradılması da turizmin inkişafına müsbət təsir göstərir. Turistlərin rahat şəkildə ölkəyə səfər edə bilmələri üçün ümumi prosedurlar sadələşdirilir. Xatırladaq ki, Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı müvafiq fərmana əsasən, viza prosedurlarının sadələşdirilməsi üçün "ASAN viza" sistemi yaradılmışdır. Əcnəbi və vətəndaşlığı olmayan şəxslər Azərbaycana gəlmək istədikləri təqdirdə sistemə daxil olaraq rahat şəkildə üç addımla (müraciət et, ödəniş et və yüklə) zəruri məlumatları doldurduqdan sonra onlayn şəkildə dövlət rüsumunu ödəyir və üç gün ərzində öz elektron ünvanlarında elektron viza əldə edirlər. Elektron viza üçün müraciət edənlərin sayının artması istiqamətində müəyyən addımlar atılır və yeni ölkələr əlavə edildikcə həmin ölkələrdən də turist kimi müraciət edənlərin sayı çoxalır.

Prezident İlham Əliyev bu sistemin tətbiqini belə qiymətləndirmişdir: "Hesab edirəm ki, turizmin inkişafı üçün həlledici rol oynayan bizim vizalarla bağlı siyasətimizdir. "ASAN viza"nın fəaliyyətə başlaması və vizanın sadələşdirilmiş elektron yollarla əldə edilməsi, əlbəttə ki, bu axını təmin edib. Biz ancaq turizmin inkişafının birinci mərhələsindəyik. Çünki hələ Azərbaycanı tanıma prosesi gedir. Bu tanıma prosesində ölkəmizdə təşkil olunan beynəlxalq tədbirlər, əlbəttə ki, rol oynayıb, həm Avropa Oyunları, həm bu yaxınlarda keçiriləcək İslam Həmrəyliyi Oyunları və xüsusilə "Formula-1" yarışları. "Formula-1"-in 500 milyon auditoriyası var. Onların hər biri şəhərimizin gözəlliyini öz gözü ilə görür və onların bir çoxu Bakıya gəlmək istəyir".

Bu gün hamı bilir ki, Azərbaycan üçün əsas hədəf neftdən asılılığın azaldılması, qeyri-neft sektorunun dinamik inkişafının təmin olunmasıdır. Buna görə də, ölkədə iqtisadiyyatın yalnız neft amilindən asılılığının qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir. Turizm məhz belə sahələrdən biridir və onun potensialının inkişafı təsərrüfatın bütün sahələrinə təsir göstərir, onların inkişafını stimullaşdırır. Azərbaycanda tətbiq olunan turizm siyasəti də məhz iqtisadi inkişafa yönləndirilir.

Bundan başqa, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət Azərbaycanın dünyada yalnız neft ölkəsi kimi deyil, eyni zamanda, zəngin turizm potensialı və əlverişli coğrafi mühitin hakim olduğu bir dövlət kimi tanınması məqsədini daşıyır. Şübhə yoxdur ki, respublikamızda turizmin inkişafında mühüm nəticələrin əldə olunması, əlverişli coğrafi mövqeyi, iqlimi, mədəni-tarixi irsi, qonaqpərvərliyi, daxili sabitliyi, gözəl təbiəti olan ölkəmizin tezliklə dünyanın turizm mərkəzlərindən birinə çevrilməsinə öz töhfəsini verəcəkdir.







*"Xalq qəzeti"*